# Nikahdankənar uşaqlar

## Layihə

***Son beş ildə Azərbaycanda nikahdankənar doğulan uşaqların sayı ciddi sosial problem olaraq diqqət çəkir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2020-ci ildən 2024-cü ilə qədər ölkədə 82 min 944 uşaq qeyri-rəsmi nikahdan doğulub. 2020-ci ildə bu rəqəm 17 min 714, 2021-ci ildə 17 min 566, 2022-ci ildə 18 min 814, 2023-cü ildə 15 min 622, 2024-cü ildə isə 13 min 228 olub. Statistik rəqəmlər uşaqların təxminən 15 faizinin nikahdankənar dünyaya gəldiyini göstərir ki, bu da sosial və hüquqi sahədə ciddi çağırış hesab olunur.***



Uşaqların hüquqlarının qorunması birbaşa valideynlərin məsuliyyətinə bağlıdır. Qeyri-rəsmi nikahda doğulan uşaqların hüquqları rəsmi nikahda doğulanlarla eyni səviyyədə təmin olunmur. Bu, onların təhsil, tibbi xidmət və sosial imkanlardan istifadəsini çətinləşdirir. Ən kritik məqam isə uşağın atalıq hüququnun müəyyən edilməməsi zamanı ortaya çıxır. Əgər ata uşağı tanımırsa, uşaq hüquqi olaraq valideynlərinin sosial təminatından yararlana bilmir. Bu xüsusilə valideynlər ayrılanda ciddi problemlər yaradır, çünki uşağın gələcək sosial təminatı təhlükə altına düşür.

### Rəsmi və qeyri-rəsmi nikah arasındakı fərqlər

**Azərbaycan qanunvericiliyinə görə, rəsmi nikah dövlət tərəfindən tanınır və hüquqi qüvvəyə malikdir. Rəsmi nikah valideynlərin öhdəliklərini, uşağın hüquqlarını və sosial təminatını qoruyur.**

Lakin bəzi insanlar dini kəbinlə və ya yalnız toy mərasimi ilə ailə qurur, rəsmi nikaha daxil olmurlar. Bu hallar uşaqların hüquqlarının tam təmin edilməməsinə, gələcəkdə aliment, vərəsəlik və sosial hüquqların məhdudlaşmasına səbəb olur.

Qeyri-rəsmi nikahda doğulan uşaqların hüquqları yalnız atalıq müəyyən edildikdə rəsmi nikahda doğulan uşaqların hüquqları ilə eyni səviyyəyə çatır. Əks halda, uşaq yalnız ananın adında qalır və atadan aliment tələb edə bilmir, vərəsəlik hüququna malik olmur.

Mövcud qanunvericiliyə görə, uşağın anadan mənşəyi tibb müəssisəsində doğulması və ya doğuma kömək edən həkimin sənədi ilə təsdiqlənir. Atalıq nikahdankənar doğumlarda isə daha mürəkkəb prosedurdur. Əgər ata uşağı tanımırsa, uşağın hüquqlarını qorumaq üçün məhkəmə prosesi başlanır. Məhkəmə uşaqla ata arasındakı qan bağını müəyyən etmək üçün tibbi arayışlar, ekspert rəyləri, şahid ifadələri və digər sübutları nəzərə alır. Genetik test və ya genom üsulu ilə uşaqla ata arasındakı qan bağı yüksək dəqiqliklə müəyyən edilir. Atalıq müəyyən edilmədikdə uşaq aliment tələb edə bilmir, vərəsəlik hüququna malik olmur, soyadı yalnız ananın göstərişi ilə müəyyən olunur.

### Sosial təsirlər

**Müşahidələr göstərir ki, ucqar kəndlərdə insanlar hələ də dini kəbinlə toy edir, rəsmi nikaha daxil olmurlar.** Bu, dövlətin statistikasının dəqiqliyinə mane olur və sosial proqramların hazırlanmasını çətinləşdirir. Dini kəbin və yalnız toy mərasimi ilə ailə quran şəxslər rəsmi nikahın vacibliyini anlamır və uşaqların hüquqlarının qorunmasında boşluqlar yaranır.

Digər tərəfdən, qeyri-rəsmi nikah cəmiyyətdə dəyər anlayışlarının dəyişməsi ilə də bağlıdır. Şou-biznes və sosial media vasitəsilə qeyri-rəsmi münasibətlər normal kimi təbliğ olunur və gənc nəsli rəsmi nikahın vacibliyini anlamamağa təşviq edir. İnsanlar hüquqlarını bilmədikləri üçün uşaq doğulduqdan sonra məhkəmə və digər hüquqi prosedurlar onları çətin vəziyyətə salır.

### Dövlətin rolu və qanunvericilik

**Azərbaycan Konstitusiyasının 17-ci maddəsi uşaqların qayğısına qalmağı valideynlərin borcu və dövlətin nəzarətini təmin edir. Ailə Məcəlləsinə görə, uşaq doğulduqdan sonra mənşəyi müəyyən edilir.** Atalıq könüllü olaraq qeydiyyat orqanına müraciət yolu ilə müəyyən edilə bilər. Əgər bu mümkün deyilsə, məhkəmə prosesi başlanır. Məhkəmə bütün mümkün sübutları nəzərə alaraq qərar çıxarır. Nikahdankənar doğulmuş uşaq atalıq müəyyən edildikdə rəsmi nikahda doğulan uşaqların hüquqları ilə eyni hüquqlara malik olur. Hüquqi prosedurlar həmçinin uşağın adının, soyadının, atalıq və analıq hüquqlarının qorunmasını təmin edir. Atalıq müəyyən edilmədikdə uşaq yalnız ananın soyadı ilə qeydiyyata alınır. Bu, uşağın gələcəkdə vərəsəlik, miras və sosial hüquqlara malik olmasını çətinləşdirir.

Qanunsuz yollarla uşaq dünyaya gətirmək həm də sosial problemlərə səbəb olur. Uşaqların sənədsizliyi onların təhsil, tibbi xidmət və sosial imkanlarını məhdudlaşdırır. Bu isə cəmiyyət üçün riskdir.

### Cəza və maarifləndirmə bir arada olmalıdır

**■ Mövzu ilə bağlı sosioloq Mail Yaqub bildirib ki, nikahdankənar uşaqların sayının artmasının bir sıra səbəbləri var:** "Düzdür, bəzi ucqar kəndlərdə hələ də rəsmi nikaha girməyən insanlar var. Toy məclisi olur, kəbin kəsilir, amma nikah bağlanılmır. Amma bunlar cüzi hissədir. İkinci və eyni zamanda böyük qrup insanlar isə dünyaya qeyri-qanuni uşaq gətirənlərdir". Ekspert bu məsələnin dövlətə böyük problem yaratdığını qeyd edib: "Bunlar dövlətin qarşısında maneədir. Bu kimi hallar mütləq olaraq aradan qaldırılmalıdır. Ailə quran, dünyaya uşaq gətirənlərin nikahı olmalıdır. Bunun üçün təbliğat işləri aparılmalıdır. Ən başlıcası hüququ prosedurlar həyata keçirilməlidir".

> “
>
> *Ailə quran, dünyaya uşaq gətirənlərin nikahı olmalıdır*
>
> *Qeyri-rəsmi nikahlardan dünyaya gələn uşaqlar sənədsiz olduqlarından, bir çox problemlərlə üzləşirlər*

Sosioloqun fikrincə, hüquqi maarifləndirmə işlərinin aparılması şərtdir: "Hamının baxdığı dəyərsiz, ziyanverici şou verilişlərində bu haqda təbliğat aparılmalıdır. Hələ mən qeyri-qanuni intim münasibətdə olanları demirəm. Söhbət el adəti üzrə toy edib, ailə quranlardan gedir. Birinci addımda maarifləndirmə, ikinci dəfə isə cərimələr tətbiq olunmalıdır. Qoy insanlar çəkinsinlər, bilsinlər ki, nikahsız dünyaya uşaq gətirmək özbaşınalıqdır. Bu kimi halların qarşısının alınması üçün maarifləndirmə, cəza tədbirləri paralel aparılmalıdır. Qeyd etdiyin kimi, bunların bir hissəsi dini kəbinlə dünyaya gələn uşaqlardır. Kənd yerlərində bəzi insanlar rəsmi nikah bağlamağa həvəs göstərmirlər və dini kəbinlə kifayətlənirlər. Bu da hüquqi maarifləndirmənin olmamasından irəli gəlir. Rəsmi nikahın olmaması dövlətin işinə də maneədir. Çünki hər hansı proqram hazırlanırsa, rəsmi doğulan uşaqları nəzərə alır. Qeyri-rəsmi qeydiyyat nəzərə alınmır.

Bu, sonradan insanlara sosial problemlər yaradır. Kəndlərdə daha çoxdur, çünki oradakı insanların hüquqi savadı şəhərə nisbətən daha azdır. İnsanlar öz hüquqlarını bilmirlər. Rəsmi nikahın zərurətini anlamırlar. Sadə dildə insanlara hüquqlarını başa salmaq lazımdır. Müəyyən cəza mexanizmləri də nəzərdə tutula bilər. Yəni, nikahdankənar dünyaya gələn uşaqlar varsa, bu halda valideynlər müxtəlif formada cərimə oluna, cəza tətbiq oluna bilər. Bunlar olmalıdır, çünki rəqəmlər artmaqdadır. Bu ciddi risklər yarada bilər".

### Bəzən həmin uşaqlar vərəsəlik hüququndan məhrum olurlar

**■ Mövzu ilə bağlı "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova isə deyib ki, nikahdankənar doğulan uşaqlar dedikdə bu heç də həmişə arzuolunmaz uşaq anlamına gəlmir: "Belə uşaqların əksəriyyəti adi ailədə doğulan uşaqlar olur.**

Sadəcə bu ailələr dini nikah, yaxud nikah qurmamış ailələrdir. Sığınacağa daxil olan uşaqlar arasında belə uşaqlar olur, lakin onların valideynləri nikahdankənar doğduqlarına görə deyil, əri tərəfindən zorakılığa məruz qalan, yaxud hər hansı asılılığı olan, cinayət törətmiş şəxslər və ailə üzvləri tərəfindən baxımsız qalan uşaqlardır".

Onun sözlərinə görə, qeyri-rəsmi nikahlardan dünyaya gələn uşaqlar sənədsiz olduqlarından bir çox problemlərlə üzləşirlər: "Sovet dönəmində təbliğat bu idi ki, birinci rəsmi nikah olmalıdır. Yalnız yaşı xeyli yuxarı olan, ahıl yaşlı insanlar birgə yaşayırdı. Hazırda isə dini nikahın daha vacib olduğu ilə bağlı təbliğat gedir. Əgər bu yanaşma normaya çevrilsə, rəsmi nikahların sayında xeyli azalma yaranacaq. Bu da ölkəmiz üçün xoşagəlməz nəticələrə səbəb ola bilər. Ola bilər ki, ikili münasibətlər olur. Evli insanların kənarda başqa uşağı da dünyaya gəlir. Belə hallarda atalığın müəyyən edilməsi ilə bağlı çətinliklər yaşanır. Əksər vaxt həmin uşaqlar vərəsəlik hüququndan məhrum olur. Qadınlar rüsum ödəyə bilmir. Övladlarına sənəd almaq üçün rəsmi atalığın müəyyən edilməsini gözləyirlər. Bəzi hallarda uşağın sənədi olmadığından uzun müddət təhsildən yayınır. Sağlamlıq problemləri zamanı normal müayinələrdən keçə bilmirlər və s".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması